# 4TH INTERNATIONAL THALES CONGRESS ON LIFE, ENGINEERING, ARCHITECTURE AND MATHEMATICS PROCEEDINGS BOOK

JULY 20-22, 2025 | CAIRO, EGYPT

PARTICIPATION FROM
16 DIFFERENT COUNTRIES



EDITORS:
**PROF. DR. MOHAMED NAGEEB RASHED**
**PROF. DR. NİGAR YARPUZ BOZDOĞAN**

**ISBN: 978-9952-8589-2–1**
**DOI: https://doi.org/10.30546/19023.978-9952-8589-2-1.2025.0013.**

BZT TURAN
PUBLISHING HOUSE

www.thalescongress.com
thalescongress@gmail.com

# 4th INTERNATIONAL THALES CONGRESS ON LIFE, ENGINEERING, ARCHITECTURE AND MATHEMATICS

JULY 20-22, 2025

ONLINE & IN-PERSON PARTICIPATION

ZOOM & CAIRO, EGYPT

# CONGRESS PROCEEDINGS BOOK

## EDITORS

**Prof. Dr. Mohamed Nageeb RASHED**

**Prof. Dr. Nigar YARPUZ BOZDOGAN**

**BZT AKADEMI YAYINEVI®**

**BZT TURAN PUBLISHING HOUSE**

PUBLISHED IN BAKU, AZERBAIJAN

TR: +90543 671 0123 GR: +491774586777

thalescongress@gmail.com

https://www.thalescongress.com/

All rights reserved

BZT TURAN YAYINEVİ®

BZT TURAN PUBLISHING HOUSE

Publishing Date: 30.07.2025

ISBN: 978-9952-8589-2-1

DOI: https://doi.org/10.30546/19023.978-9952-8589-2-1.2025.0013.

DOI: https://doi.org/10.30546/19023.978-9952-8589-2-1.2025.0013.
ISBN: 978-9952-8589-2–1

# TRADITION AND HISTORICALITY IN THE CREATIVITY OF MUSEIB AMIROV

**Emil Raul oğlu Ağayev**

Teacher of the subject combination commission "Art and physical education" of the Azerbaijan State Pedagogical College under the Azerbaijan State Pedagogical University

**ORCID:** 0000-0001-9354-0839

## MÜSEYİB ƏMİROV YARADICILIĞINDA ƏNƏNƏ VƏ TARİXİLİK

**Xülasə.** Azərbaycan təsviri sənətinin inkişafı müxtəlif tarixi mərhələlərdən keçmişdir. Tanınmış rəssamlar, onların əsərləri Azərbaycan təsviri sənətində yeni xüsusiyyətləri ilə seçildi. Qərb və Şərq motivləri, milli ənənələrin sintezi rəssamlarımız üçün əsas təsvir formasına çevrildi. Müasir dünyamızın inkişaf etdiyi bir dövrdə incəsənətdə yeni istiqamətlərin, formaların, üslubların zənginliyi ilə seçilir. Özünəməxsus dəst-xətti ilə tanınmış rəssam Müseyib Əmirovun yaradıcılığı müasir təsviri sənətimizin inkişafında mühüm rol oynayır. Onun yaradıcılığının formalaşmasında tanınmış rəssamlar Toğrul Nərimanbəyov, Rasim Babayev, Sənan Qurbanov, Kamal Əhməin mühüm rolu vardır. Bu məqalədə rəssamın “Çimərlik”, “Dərvişlər”, “Külək”, “Çətir tutan qadın”, “Zirvədə” və “Unudulmuş bağ evi” əsərləri sənətşünaslıq kontekstində təhlil edilmişdir.

**Açar sözlər:** Müasir, Azərbaycan, təsviri sənət, Müseyib Əmirov, milli ənənə

**Abstract.** The development of Azerbaijani visual art has passed through various historical stages. Renowned artists and their works have distinguished themselves with new characteristics in the field of Azerbaijani art. Western and Eastern motifs, along with the synthesis of national traditions, have become the primary forms of expression for Azerbaijani painters. In an era of rapid global development, contemporary art is characterized by a diversity of new directions, forms, and styles. The creativity of the distinguished artist Museyib Amirov, known for his unique artistic signature, plays a significant role in the evolution of modern Azerbaijani fine art. The influence of prominent artists such as Togrul Narimanbayov, Rasim Babayev, Sanan Gurbanov, and Kamal Ahmad has been crucial in shaping his artistic path. This article analyzes Museyib Amirov’s works — “Beach,” “Dervishes,” “Wind,” “Woman Holding an Umbrella,” “At the Peak,” and “The Forgotten Garden House” — within the context of art criticism.

**Keywords:** Contemporary, Azerbaijani, fine art, Museyib Amirov, national tradition

Dünya incəsənətinin inkişafında özünəməxsusluğu ilə seçilən Azərbaycan təsviri sənəti müasir dövrdə də öz aktuallığını qoruyub saxlayır. Yeni nəsillərin formalaşması, yeni rəssamların ortaya çıxması bu

DOI: https://doi.org/10.30546/19023.978-9952-8589-2-1.2025.0013.



ISBN: 978-9952-8589-2–1

sənətin hələ də yaşadığına və inkişafına işarədir. Özünəməxsus yaradıcılıq yolu ilə seçilən rəssamlardan Müseyib Əmirovun adını vurğulamalıyıq. Milli Abşeron ənənələrinə söykənən əsərləri rəng, forma, obraz baxımından fərqlilii ilə seçilir.

Müseyib Əmirov 1963-cü ildə Bakı şəhərində, rəssam Arif Əmirovun ailəsində dünyaya gəlmişdir. O, 1979-cu ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini, 1987-ci ildə isə Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmişdir. 1996-cı ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. Bir müddət Azərbaycan Rəssamlıq Akademiyasında "Eksperimental rəsm" sinfi üzrə dərs demişdir. Müseyib Əmirov həmçinin müxtəlif beynəlxalq layihələrə qatılmış, Paris, Vaşinqton və Lüksemburq kimi şəhərlərdə təşkil olunan sərgilərdə iştirak etmişdir. Rəssamın bir sıra fərdi sərgiləri də keçirilmişdir. Bunlar arasında 2014-cü ildə Bakıda "YARAT" Müasir İncəsənət Məkanında, 2015-ci ildə Müasir İncəsənət Muzeyində və 2019-cu ildə Moskvada baş tutmuş sərgiləri xüsusilə qeyd oluna bilər.Onun əsərləri Azərbaycanla yanaşı, Rusiya, ABŞ, İsveç, Fransa, Almaniya, Litva, Böyük Britaniya, Türkiyə, İtaliya, Danimarka və Norveç kimi ölkələrin muzey və qalereyalarında, eləcə də şəxsi kolleksiyalarda saxlanılır. 29 dekabr 2006-cı il tarixində Müseyib Əmirov Azərbaycan təsviri sənətinin inkişafında göstərdiyi xidmətlərə görə "Azərbaycan Respublikasının əməkdar rəssamı" fəxri adına layiq görülmüşdür.

Abşeron yalnız coğrafi bir ərazi deyil, eyni zamanda nəfəs alan, yaşayan və təbiətin səsi ilə danışan mənəvi bir məkandır. Bu torpaq Xəzərin maviliyi ilə qovuşan günəşli küləklərin qoynunda yerləşir. Abşeronun daşları sadəcə səssiz qayalar deyil, onlar zaman-zaman özündə yığıb saxladıqları tarixlə danışan canlı şahidlərdir. Bu diyar sənət adamına ilham verir, onun duyğularına toxunur və içindəki sənətkarı oyadır. Müseyib Əmirov da bu torpaqdan güc alaraq, boyalar vasitəsilə danışır, Abşeronun ruhunu rənglərə və formaya çevirir. Bu onun üçün sözlə deyil, simvollar, siluetlər, kölgələr və sükut içində gizlənmiş dərin ifadə ilə danışmaq deməkdir. Bu danışığı isə yalnız duymaq və hiss etmək mümkündür. Əmirovun yaradıcılığı Abşeron torpağı ilə məhdudlaşmır, əksinə, onun ruhunu, tarixini, insanını və bu torpağa aid olan hər şeyi özündə ehtiva edir. Abşeron, onun rəsmlərində təkcə fiziki məkan kimi deyil, həm də insanın xatirələri, hissləri, arzuları və yaşam təcrübələri ilə dolu bir həyat məkanı kimi əks olunur. Burada yaşayan insanlarla torpaq arasında xüsusi bir bağ var; onlar eyni ritmlə nəfəs alır, eyni duyğuları paylaşırlar. Bu səbəbdən, Əmirovun rəsmləri təkcə təbiət təsviri deyil, həm də bir torpağın portreti, onun bədii obrazıdır. Hər bir tablosu özünəməxsus rəng duyumu, xətlərlə qurulmuş həssas tarazlıq və yaddaşda yer edən kompozisiyalarla torpağa olan mənəvi bağlılığı ifadə edir.

Əsərlərinə baxarkən Abşeronun təmtəraqsız, lakin dərin mənəvi qatlara sahib simasını hiss etmək mümkündür. O, insanla torpaq arasında ayrılmaz bir bağ qurur. Necə ki, fırçanı kətandan ayırmaq qeyri-mümkündürsə, Abşeron insanlarını da bu torpaqdan ayırmaq mümkünsüzdür. Onlar bir-birini tamamlayır, bir-birinə həyat verir. Onun rəsmlərində zaman anlayışı donmuş kimidir – sanki hər şey

DOI: https://doi.org/10.30546/19023.978-9952-8589-2-1.2025.0013.

ISBN: 978-9952-8589-2–1

həmin anın içində əbədiləşib. Orada torpağın qoxusu, insan nəfəsi, neftin ağır ətri və Xəzər dənizində rəqs edən günəş işığı bir araya gələrək, insanın bu torpağa aid olduğunu xatırladır.

Əmirovun sənət dili həm bədii, həm də poetikdir. O, rənglərdən duyğuların ifadə vasitəsi kimi istifadə edir və ən sadə obrazlara belə unikal baxış bucağından yanaşaraq onları fərqli bir estetik forma ilə təqdim edir. Onun rəsmlərində romantik duyğular və insanın daxili aləmi ön plandadır. Əmirov üçün əsas məsələ insanın özüdür — onun düşüncələri, münasibətləri, duyğuları və dünyaya baxışı. Onun sənətində təsadüfi heç nə yoxdur; hər detal doğmalıq və səmimiyyətin axtarışına xidmət edir.

Müseyib Əmirovun yaradıcılığı dərin fəlsəfi qatlara da malikdir. O, bu baxış tərzini sənətkar Rasim Babayevin fəlsəfi yanaşmasından ilhamlanaraq inkişaf etdirmişdir. Əmirov üçün rəsmdə forma tək başına kifayət etmir; o, obrazın içində gizlənmiş gerçəklikləri və estetik dəyərləri də ön plana çıxarmağa çalışır. Bu, onu sadəcə bir rəssamdan fərqli olaraq sənətdə düşünən, analiz edən və hər forma içində həqiqət axtaran bir filosof kimi təqdim edir. Onun üçün hər bir təsvir təmiz və saf olmalıdır, çünki sənətdə dürüstlük onun estetik anlayışının əsasında dayanır.

Əmirovun bədii təfəkkürünün formalaşmasında Azərbaycan təsviri sənətinin bir sıra böyük ustalarının xüsusi rolu olmuşdur. O, bu sənətkarlardan təkcə texniki bilik deyil, həm də sənətə baxış, ifadə tərzi və estetik dəyərlər öyrənmişdir. Rasim Qurbanovun fəlsəfi dərindən düşüncəsi, Rasim Babayevin yaratdığı surətlərin simvolik dünyası, Britaniyalı rəssam Törnerin fırça texnikasının gücü, Mircavad Mircavadovun sərt metaforik təsvirləri, Tofiq Cavadovun poetik simvolları və Toğrul Nərimanbəyovun rəng hissiyyatı Əmirovun sənət dünyasında öz izini buraxmışdır. Bu sənətkarların təsiri nəticəsində o, öz sənət baxışını formalaşdırmış, yeni və orijinal bir üslub yaratmağa nail olmuşdur. Onların sənətindən aldığı ilhamla Əmirov rəngləri və kompozisiyanı geniş düşüncə müstəvisində, rəssamlıq dilində ifadə etmə bacarığını ortaya qoymuşdur. Müsəyyib Əmirov üçün onun sənət yolunun başlanğıcında atası  rəssam Arif Əmirxanovun dərsləri də xüsusi əhəmiyyət kəsb edir. Arif Əmirxanovun kompozisiyaya olan münasibəti, milli sənət ənənələrinə bağlılığı və obrazı bir mədəni kod kimi təqdim etməsi, Müsəyyib Əmirovun yaradıcılıq prinsiplərinin əsas təməlini təşkil etmişdir.

Rəssamın yaradıcılığı torpaqla insan arasındakı bağın rənglər vasitəsilə ifadəsidir. Bu, həm sənətkarın öz daxili aləminin, həm də ona ilham verən mənəvi mühitin poetik və fəlsəfi tərcüməsidir.

Müseyib Əmirovun "Çimərlik" əsərində insanların rahatlıqla Xəzərin sahillərində dincəlməsi, dekorativ rəng həlli ilə təqdim edilmişdir. Burada sakit faktura rəssamın mövzuya uyğun olaraq bədii həllə əsaslandığını qeyd edə bilərik.

DOI: https://doi.org/10.30546/19023.978-9952-8589-2-1.2025.0013.



ISBN: 978-9952-8589-2–1



**İLL 1. Müseyib Əmirov "Çimərlik" (kətan, yağlı boya, 55x190 sm)**

"Dərvişlər" əsərində rəssam fəlsəfi düşüncələri fırça ilə çatdırmışdı. Tanrıya yaxınlaşmaq üçün, nemətlərdən uzaqlaşan bu ənənəvi obrazlar sanki sənətın gücündən ilhamlanırlar. Rəssam burada sənətdən ilhamlanan obrazlara müraciət edərək, siluetləri ritmik hala gətirmişdi.



**İLL 2. Müseyib Əmirov "Dərvişlər" (kətan, yağlı boya, 150x250 sm)**

Rəssamın yaradıcılığında "Balaxanı", "Külək", "Neft nasosları" əsərləri Abşeron torpağının abu-havasını tamaşaçıların diqqətinə çatdırır.

Müseyib Əmirov real həyat səhnələrinə toxunaraq, onları tablolarına köçürür. Həmişə səs-küyü ilə seçilən, yayda daima sıx olan bağ evi illər keçəndən sonra unudulmuşdur. Rəssam artıq dağılmış, insanların sevgisinin, birliyinin unudulduğu bağ evini həsrətlə xatırladır.

DOI: https://doi.org/10.30546/19023.978-9952-8589-2-1.2025.0013.
ISBN: 978-9952-8589-2–1




**İLL 3. Müseyib Əmirov "Unudulmuş bağ evi" (kətan, yağlı boya, 67x76 sm)**

Rəssamın yaradıcılığı müasir Azərbaycan təsviri sənət tarixini zənginləşdirməklə bərabər, ənənə və müasirliyin sintezini bir daha yaşdığını sübut edir….

**ƏDƏBİYYAT SİYAHISI:**

1.Müseyib Əmirovun "QGallery"-də keçirilən "Abşeron həyatın naxışı" fəsdi sərgisi.
2. https://az.wikipedia.org/wiki/M%C3%BCseyib_%C6%8Fmirov